# CAVAD HEYƏTİN ƏSƏRLƏRİNDƏ DİNİ MAARİFÇİLİK MƏSƏLƏLƏRİ

*(Əvvəli ötən saylarımızda)*

Dilsuz şeirlərində buğda qıtlığından şeyxülislama şikayət edir, -
Neçə müddətdi alimdən qaçıb ol zalimi-dun,
Tutmuşam indi sorağın, sizin anbardədir,
-deyərək qıtlığın səbəbkarına işarə edirdi.

Seyid Əbülqasım (Xançobanı) Nəbati haqqında məlumat verən Cavad Heyət onun dərvişməslək bir şair olduğunu, peyğəmbər nəslindən gəldiyini, şeirdə Hafiz, Şəms Təbrizi və Mövlana Rumi səviyyəsində olduğunu Firidun bəy Köçərliyə istinadla bildirirdi. O, ömrünü riyazətlə, çilə ilə sufiyanə bir tərzdə keçirmiş, Nəsimi və Füzuli tərzində, onların təsirilə şeirlər yazmışdır. "İndi ol baş ağrıdan əfsanələrdən küsmüşəm" deyən şair axtardığı həqiqəti tapa bilmədiyi üçün dini təriqət mübahisələrindən bezdiyini ifadə edirdi.

Gedin deyin Xançobana,
Gəlməsin bu il Muğana,
Muğan batlb nahaq qana. (Şair burada Rusiya işğalının İranı və Azərbaycanı qan içində boğduğuna işarə edirdi).

Cavad Heyət A.A.Bakıxanovun Qüdsi təxəllüsü ilə Ruminin təsiri ilə ilahi eşq mövzusunda şeirlər yazdığını, onun - Riyazül-qüds əsərində (Füzulinin Hədiqətüs-süədası"na nəzirə) "Aşiqlik məhz Kərbəla şəhidi İmam Hüseynin işidir ki, ona eşq yolunda, din və haqqaniyyət yolunda nə qədər xəncər, nizə, ox vursalar da, yolundan dönmədi" - sözünü nümunə verirdi. O, Təhzibül-əxlaq əsərində Avropa və islam müəlliflərindən əxlaqi fikirləri nümunə verir və - Elmsiz əməl şoranlıqda toxum kimidir, Əməlsiz elm də qəbir içrə diri kimidir, yazırdı.

Bakıxanov Rus-İran müharibəsi zamanı Təbrizə gəlmiş, oradakı xurafat və mövhumatı "Təbriz əhlinə xitab" şerində tənqid etmişdir:

O, Təbrizdə Kərbəla şəhidlərinə təziyə məclislərində Qacar şahzadələrini vəsf edən -
Bu sərbazü əsasü şahzadə
Olaydı kaş bu dəm Kərbəladə
-şerinə nəzirə olaraq belə yazırdı:
Büsatü cəng olan saət qaçaydı,
Qoyardı sərvəri-dini aradə.

Cavad Heyən əsərlərində Mirzə Şəfi Vazehdən də bəhs etmiş, onun xurafat və mövhumata qarşı şeirlər yazdığını, Qafqaz şeyxülislamını və İran şahını hicivlə tənqid etdiyini, qadınlara - "Başından çadranı at" deyərək, qadın azadlığını təbliğ etdiyini yazırdı. O, ruhani təhsili alsa da, din xadimi olmaq istəməmiş, Axundov da onun təsiri ilə ruhani olmaqdan imtina etmişdi.

Qasım bəy Zakir isə çarizmin işğalçılıq və zülm siyasətini tənqid edir, "Murovlar olubdur oğruya ortaq; Bu viladə hər gün tökülür qanlar" (Durnalar şeiri) deyərək müstəmləkəçiliyi tənqid edirdi.

Həsən bəy Zərdabi 1875-ci ildə Əkinçi qəzetini nəşr edərək Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov və s. ziyalıları öz ətrafında toplayaraq cəhalətə, xurafata, fanatizmə qarşı mübarizə apardı, maarifçiliyi təbliğ etdi. Cavad Heyət yazır ki, o, xalqı cəhalət yuxusundan oyanmağa, düşüncə azadlığı ideyalarına çağırır, müsəlmanların geriliyini köhnə qaydaların hökm sürməsində, azadlığın olmamasında görürdü.

M.F.Axundovdan haqqında məlumat verən Cavad Heyət onun Tiflisdə hökumət idarəsində Şərq dilləri üzrə mütərcim olduğunu, 1848-ci ildə Nəsrəddin şahın taxta çıxması münasibətilə Tehrana gedib orada şahın baş vəziri, görkəmli islahatçı dövlət xadimi Mirzə Tağı xan Əmiri-Kəbirlə görüşdüyünü, İranın ictimai-siyasi vəziyyəti ilə yaxından tanış olduğunu yazır. Axundov hekayəti-Molla İbrahim Xəlil Kimyagər, Hekayəti-Müsyö Jordan və dərviş Məstəli şah, Sərgüzəşti-Veziri-xani-Lənkəran və Sərgüzəşti-mərdi-xəsis və ya Hacı Qara və s. Aldanmış Kəvakib və s.əsərləri, komediyaları yazan Axundov teatr sənətinə xalqı maarifləndirən, əxlaqlandıran, tərbiyələndirən bir sənət kimi baxırdı. O, bu əsərlərində dünyəvi maarifçiliklə yanaşı dini maarifçilik fikirlərini də ortaya qoymuş, dindən suiistifadə edən tamahkar din xadimlərini, onlara inanan avam insanları, nadan din xadimlərindən öz məqsədləri üçün istifadə edən zalım dövlət xadimlərini tənqid etmişdir. Axundovun teatr əsərləri XIX əsrdə Tehranda fars dilində çap olunmuş, müəllif Şərqin Molyeri və Qoqolu kimi Avropada məşhur olmuşdur. O, əlifba islahatını İran və Türkiyədə də təbliğ edərək, müsəlman xalqlarının inkişafı üçün bunun vacib olduğunu yazırdı. Axundovun Kəmalüddövlə məktubları əsəri onun fəlsəfi və siyasi fikrinin zirvəsidir. Əsərdə istibdad, dini fanatizm, məzhəbçilik tənqid edilir, saray ruhanilərinin, münəccimlərin "alçaqlığı və yaltaqlığı", zalım şah məmurlarının zülmü tənqid edilir, İran xalqı maarifçiliyə və inqilaba çağırılırdı. Cavad Heyətə görə Axundov zaman və məkanın xaricində başqa bir varlığı qəbul etmirdi, lakin onda vəhdəti-vücud fəlsəfəsinin də (Şəbüstəri təsiri) izləri görünür. Cavad Heyət yazır ki, Axundov Azərbaycan xalqının ictimai fikir inkişafında mühüm rol oynamışdır.

C.Heyət yazır ki, qarabağlı Seyid Nigari Nəbati təsirində sufiyanə şeirlər yazmış, sufi mürşidi olmuş, Türkiyədə təhsil almışdır. Onun divanı Türkiyədə və Tiflisdə nəşr olunmuşdur.

Seyid Əzim Şirvani ruhani təhsili almış, İraqda, Misirdə, Suriyada dini təhsilini artırmışdır. Şamaxıya döndükdən sonra üsuli-cədid məktəbi açmışdır. O, Cavad Heyət tərəfindən Füzulidən sonra Azərbaycanda qəzəlin ustadı sayılıb. Şair yazırdı:

Demə bu kafirdir, o, müsəlmandır,
Hər kimin elmi var, o, insandır.
Və ya:
Zahid, çağırma Kəbəyə meyxanədən məni
Yüz Kəbədən səfalıdır meyxanədən biri.
Min həccdən şərafəti əfzun olur əgər
Şəmə dolanıban yanan pərvanənin biri.

Cavad Heyətə görə şair burada ilahi eşqi, insanın ilahi eşq yolunda şam ətrafındakı pərvanə kimi fəna fillah olmasını təbliğ eləyir. Sabirin yetişməsində bu görkəmli satirik şairin mühüm rolu olmuşdur.

C.Heyətə görə, Sabir - İran şairlərindən daha çox İran məsələsinə, məşrutə inqilabına, Səttarxan hərəkatına maraq göstərmiş, onu alqışlamış, şah rejimini, Zilli Sultan, Məhəmmədəli şahı, Mirhaşim kimi əksinqilabçı saray ruhailərini tənqid etmişdir. Onu babiliklə ittiham edənlərə qarşı -

Yox yeni bir dinə yəqinim mənim,
Köhnə müsəlmanəm, a şirvanlılar.
* * *
Şiəyəm, əmma nə bu əşkaldən,
Sünniyəm, əmma nə bu əmsaldən,
Sufiyəm, əmma nə bu əbdaldən,
Həq sevən insanəm, a şirvanlılar.
* * *
Küfrümə hökm eyləməyin, zur ilə,
Qaili-Quranəm, a şirvanlılar.
* * *
Məncə bu işlər bütün şiveyi-küffardır,
Dinə zərərdir, zərər, oxutmuram əl çəkin.
* * *
Sünniyü şiə təəssübləri ləğv oldumu ya,
Nə dedin? Küfr danışdın.
-deyərək məzhəbçiliyin hələ də davam etməsini tənqid edirdi.

Cəlil Məmmədquluzadə Ölülüər əsərində Şeyx Nəsrullah kimi fırıldaqçı ruhaniləri, ona inanan avam müsəlmanları, - arvadlarınızı döyə-döyə öldürmüsünüz, yetimlərin mallarını yemisiniz, tfu sizin üzünüzə deyərək ifşa edir, tənqid edirdi. C.Heyətə görə - Kefli İsgəndər şüursuzluğundan, əhli-kef olmasından yox, məhz xalqın faciəsini dərk edib çıxış yolu tapa bilmədiyinə görə əyyaşlığa düçar olmuş müsbət bir qəhrəmandır.

Cəlil Məmmədquluzadə Anamın kitabı əsərində ziyalılarda fars-islam və ya İran təsiri, Türkiyə təsiri və Rusiya təsirindən acı şəkildə ilə bəhs edir.

Ax unudulmuş vətən, ax yazıq vətən! Ey biçarə vətən! Ey torpaq çörəyi yeyən təbrizli qardaşlarım, Niyə sakitsiniz, ey mənim lüt-üryan vətən qardaşlarım, ey unudulmuş vətənin cırıq-mırıq qardaşları. Beşikdə yad millətlərin südünü əmmiş, vətənimizi yadırğamış və millətimizdən xəbərsiz bir para millət başçıları sizə nə gün ağlayacaq? Qeyd edək ki, bu sözlər bu gün də aktualdır.

Cəlil Məmmədquluzadənin qardaşı Mirzə Ələkbər Xiyabaninin yanında işləyirdi. Xiyabaninin Demokrat firqəsinin İntibahnaməsi Molla Nəsrəddində çap olunmuşdu. İntibahnamədə: Qalxın, qiyam edin. Qəsb olunan hüququnuzu nə vaxt alacaqsınız? - deyilirdi.

Cavad Heyətə görə - Təbrizli deputat və yazar Mirzə Əbdürrəhim Talıbov müasir fars nəsrinin banilərindən biridir. O və Z.Marağayi (ilk realist roman - İbrahim bəyin səyahətnaməsi) İranda məşrutə inqilabına zəmin hazırlanmasında müstəsna rol oynamışdılar. Onun Kitab yüklü eşşək, Xeyirxahların məsləki, Həyat məsələləri romanları, Azadlıq haqqında izahat əsərləri mühüm əsərlərdir. Azad fikirli olduğu üçün o, nadan ruhanilər tərəfindən küfrlə ittiham edilmişdir. Ə.Hüseynzadə yazırdı ki, əgər Ə.Talıbov kafirdisə, dünyada müsəlman yoxdur.

Mirzə Həsən Rüşdiyyə Təbrizdə və Beyrutda təhsil almışdı. C.Heyər yazır ki, onun Vətən dili kitabı ədəbiyyat tariximizdə böyük bir hadisəsir, ilk dərslikdir. Dəbistan, Rüşdiyyə mədrəsələri milli pedaqogika tariximizdə önəmli yer tutur.

Mirzə Əli Möcüz Şəbüstəri (ö.1934) molla məktəbində təhsil almış, İstanbulda kitab ticarətilə məşğul olmuşdur. O, vaxtının çoxunu Şeyx Mahmud Şəbüstərinin məqbərəsində xidmət ilə keçirmiş, tərəqqipərvər və azadxah bir şair kimi vətənin pərişan halını görüb, Sabir tərzində sadə xalq dilində satirik şeirlər yazmışdır:

Dedim: ey vay, nə çoxdur füqərası bu yerin
* * *
Dinmə, danışma və tərpətmə zəbanının dedilər.
Nə yatıbsan, ayıl, ey milləti-biçarə, ayıl,
Satır axır vətəni düşmənə, əyani-Vətən.
Niyə ya rəb, belə xar oldu, əzizani-vətən,
Düşmən elm ilə eylədi bizi həmmal özünə,
Kim zəlil etdi bizi. Cəhl, a müsəlmani-vətən.
Olmayıb şad, üzü gülməyib, əfsus, əfsus
O zamandan ki olub Möcüzə İran vətən.
* * *
(Mən böylə zülmü sitəm xalqa rəvan görməmişəm)
Xəlqdən rüşvət alıb kisəmi doldurmamışam...
Küfrümə hökm eylədiz hansı günah ilə mənim?
Ey şəbüstərli dadaşlar, sizə mən neyləmişəm?
* * *
Qibleyi-aləmlərə yüz il "bəli, qurban" dedik,
Bir zaman da "hə" deyək, ağayi-cümhuriyyətə.
İstəsən qeydi-əsarətdən xilas olmaq əgər
Qoy qədəm Musa kimi dəryayi-cümhuriyyətə.

Son olaraq deyə bilərik ki, Cavad Heyətin əsərləri təkcə tibb elminin, milli və dünyəvi maarifçiliyin inkişafı baxımından yox, klassik ədəbiyyatımızın, dini maarifçiliyin tədqiqi və təbliği üçün, günümüzün aktual problemləri olan - dini xurafat və mövhumatla, fanatizmlə, islamofobiya ilə mübarizə baxımından da əhəmiyyətlidir və öz yeni tədqiqatçılarını gözləyir.



***Əli FƏRHADOV,***
*t.ü.f.d., dosent,*
*Milli Azərbaycan Tarixi Muzeyinin aparıcı elmi işçisi, Bakı,*
*ali_farhadov@yahoo.com*